# Mingəçevir: abadlıq, quruculuq işləri sürətlə davam edir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin cari ilin doqquz ayında ölkənin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı ölkəmizin dinamik inkişaf etdiyini və ilin ötən doqquz ayında nəzərdə tutulan bütün proqramların uğurla icra olunduğunu qeyd etmişdir.**

**Ölkə rəhbəri xüsusi qeyd etmişdir ki, valyuta ehtiyatlarından qənaətlə istifadə olunması, investisiya proqramlarının düzgün təhlili nəticəsində 9 ayda valyuta ehtiyatlarının 4,5 milyard dollar artaraq 42 milyard dollara çatdırılması təmin edilmişdir.**

**Mingəçevir şəhərində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində iqtisadi və sosial sahələrdə təsirli irəliləyiş müşahidə olunmuş, görülən tikinti, abadlıq və quruculuq işləri geniş vüsət almışdır.**

**Bu barədə şəhər icra hakimiyyətində bu günlərdə geniş şura iclasında ətraflı söhbət getmişdir. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun hesabat məruzəsi dinlənilmişdir.**



Natiq qeyd etmişdir ki, ölkə rəhbərinin tapşırığına əsasən Mingəçevir şəhərində inşa edilən Sənaye Parkında və "Asan Həyat"ın inzibati binasında tikinti-quruculuq işləri sürətlə davam edir və görüləsi işlərin əsas mərhələsi yekunlaşmaq üzrədir. Şəhərin küçə və məhəllədaxili ərazilərində ötən 9 ayda ümumilikdə 45 min kvadratmetr sahəyə yeni asfalt örtük salınmış, 9 min metr uzunluğunda səki daşları düzülmüş, 7 min kvadratmetr sahəyə dekorativ tamet döşənmişdir. Hündür mərtəbəli 7 binanın dam örtüyünün əsaslı təmirinə 6,7 min kvadratmetr metal kirəmit işlənmişdir. Axundov və Səməd Vurğun küçələrində yerləşən yaşayış binalarının fasadlarının və ümumi istifadə yerlərinin əsaslı təmiri davam edir.

Dövlət Proqramında bilavasitə şəhərimizə aid bəndlər uğurla icra olunur. Yaşayış məntəqələrinin elektrik enerjisi, qaz, su və kanalizasiya sistemlərinin bərpası və yenidən qurulması istiqamətində aidiyyəti qurumlar tərəfindən işlər davam etmişdir.

Bu ilin doqquz ayında istehsal olunmuş sənaye məhsulunun 95 faizi elektrik enerjisi istehsal edən Azərbaycan İstilik Elektrik Stansiyası və Su Elektrik Stansiyası Silsiləsi MMC-lərin payına düşür. 9 ayda bu stansiyalarda ümumilikdə 6,8 milyard kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur. Ötən aylarda "Az.İES" MMC-də payız-qış mövsümünə hazırlıqla bağlı 6-cı enerji bloku əsaslı təmir olunmuş, 8-ci enerji blokda əsaslı təmir, 1-ci enerji blokda cari təmir işləri davam edir.

"SES Silsiləsi" MMC-də 2 nömrəli hidroaqreqat əsaslı təmir olunmuş, 3 hidroaqreqatda cari təmir işləri aparılmış, 3 ədəd güc transformatoru, 2 ədəd avtotransformatorlar dəyişdirilmişdir.

9 ayın yekunu üzrə "Azneftemaş", "Mingəçevir İzolit" ASC-lər, "Akkord" Mingəçevir Maşınqayırma zavodu MMC sabit iş rejimində işləmişlər.

Hesabat dövründə əhalinin sosial problemləri daim diqqət mərkəzində olmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şəhər şöbəsində hazırda 18068 nəfər pensiyaçı və 480 ünvanlı sosial yardım alan ailə qeydiyyatdadır. 9 ayın yekunu üzrə pensiya, müavinət və yardımlar vaxtında ödənilmişdir.

İlin əvvəlindən şəhər məşğulluq mərkəzinə 2015 nəfər iş axtaran sakin müraciət etmiş, onlardan 672 nəfəri ixtisasına, peşəsinə uyğun işlə təmin edilmiş, 180 nəfərə işsizliyə görə müavinət təyin edilmişdir.

Təhlil göstərir ki, 9 ayın yekunu üzrə yerli gəlirlər 14,3 milyon manat, xərclər 12 milyon manat icra olunmuşdur.

2017-ci ilin 9 ayında şəhərin kommunal xidmət təşkilatları şəhərdə aparılan abadlıq və quruculuq işlərində yaxından iştirak etməklə yanaşı, öhdələrinə düşən vəzifələri uğurla icra etmişlər.

Su kanal idarəsi tərəfindən 9 ay ərzində köhnə su şəbəkəsində baş vermiş 3200 qəza aradan qaldırılmışdır. Su-kanalizasiya xidmətlərinə görə ödəniş əhali üzrə 85,1 % təşkil etmişdir.

Qaz İstismar Xidməti tərəfindən hesabat dövründə müxtəlif diametrli 2337 p.m. qaz xətti çəkilmiş, 15 ədəd yeni şkaf tipli qaztəmizləyici məntəqə quraşdırılmış, 1315 ədəd qaz sayğacı, 140 ədəd fərdi tənzimləyici yenilənmişdir.

Hesabat dövründə güzəştsiz əhali sektorunun ödənişi 102 % təmin edilmişdir.

Hazırda Mingəçevir şəhərində doğma yurd-yuvalarından didərgin düşmüş 5426 məcburi köçkün ailəsi (20386 nəfər) məskunlaşmışdır. Onlar yataqxanalarda, mehmanxanalarda, tikintisi yarımçıq qalmış müxtəlif binalarda, idarə, müəssisə və təşkilatların inzibati binalarında, mədəniyyət və səhiyyə müəssisələrində, 3 məcburi köçkün qəsəbəsində məskunlaşmışlar. Sosial-məişət problemlərinin həlli istiqamətində şəhər rəhbərliyi məcburi köçkünlərin məskunlaşdıqları tikililərin dam örtüklərinin təmirində, su ilə təchizatında, kanalizasiya xətlərinin təmirində yaranmış problemlərin həllində imkan daxilində köməkliklər göstərir.

Şəhər rəhbərinin müraciətləri nəticəsində "Dövlətqaçqınkom" tərəfindən məcburi köçkünlərin kompakt yaşayış yerlərində mütəmadi əsaslı təmir işləri aparılır. Bu il məcburi köçkünlərin məskunlaşdıqları "Mingəçevir-İzolit" ASC-nin yardımçı təsərrüfatındakı tikililərin, sağ sahildəki hamam binasının, 5 N-li DBM zavodunun ərazisindəki binaların bir hissəsində, "Şüşə-lifi" ASC-nin yardımçı təsərrüfatındakı bir binada dam örtükləri əsaslı təmir olunmuşdur. Hazırda 412 mənzilli "Yeni həyat" qəsəbəsində Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun xətti ilə drenaj sistemlərinin yenidən qurulması və bərpası işləri aparılır.

2017-ci ilin 9 ayında təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrinin inkişafına, onların maddi-texniki bazasının genişləndirilməsinə lazımi diqqət yetirilmiş, müvafiq tədbirlər görülmüşdür.

Bu il XI sinifləri 802 nəfər bitirmiş, buraxılış imtahanlarında 788 şagird iştirak etmiş, onlardan 654 nəfəri imtahanı müvəffəqiyyətlə vermişdir. XI sinfi bitirərək attestat alanlardan 585 nəfəri ali məktəbə qəbul üçün sənəd vermiş, onlardan 426 nəfəri tələbə adına layiq görülmüşdür.

IX sinfi 982 şagird bitirmiş, imtahanda 974 nəfər iştirak etmiş, 524 nəfər imtahanlarda müsbət nəticə göstərmişdir.

Hesabat dövründə fənn olimpiadalarının finalında iştirak edən 18 nəfərdən 10-u qalib gələrək 1 qızıl, 4 gümüş, 5 bürünc medal qazanmışlar.

Respublika üzrə keçirilən Fənn müsabiqəsində Mingəçevir məktəblilərinin komandası I yerə, Təhsil Nazirliyi tərəfindən keçirilən "Heydər Əliyev-94" təqdimat müsabiqəsində Təbiət, Riyaziyyat və Humanitar Elmlər Təmayüllü Liseyin 9-cu sinif şagirdi Rauf Şirinov I yerə layiq görülmüşdür.

Aprel ayında keçirilən "Müəllimlərin Diaqnostik Qiymətləndirilməsi"ndə 1213 müəllim iştirak etmiş, onların 42%-i respublika üzrə yüksək nəticə göstərmişlər.

Azərbaycan Respublikası Prezidentinin 28.12.2016-cı il tarixli Fərmanına əsasən Mingəçevir şəhərində İcbari Tibbi Sığortanın tətbiqinə başlanılmışdır.

Hesabat dövründə Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının maddi-texniki bazası gücləndirilmiş, yeni "Bekman" markalı analizatorlardan ibarət laboratoriya yaradılmışdır. May ayından xəstəxanada laporoskopik əməliyyatlar yerinə yetirilir.

Az.ES yaşayış massivində 2 saylı poliklinika əsaslı təmir edilmiş və onun nəzdində Ailə Sağlamlıq Mərkəzi yaradılmışdır. İcbari tibbi sığortanın tətbiq olunması ilə əlaqədar həkimlərin əməkhaqqı 3 dəfə, tibb bacılarının əməkhaqqı 2 dəfə, kiçik tibb işçilərininki 1 dəfə artırılmışdır.

Fevral, may aylarında ölkə Prezidentinin tapşırığına əsasən 3 tibbi məntəqədə 79760 nəfər şəhər sakini tibbi müayinədən keçirilmişdir.

Şəhər gigiyena və epidemiologiya mərkəzi tərəfindən hesabat dövründə Polis şöbəsi ilə birgə reydlər keçirilmiş, ərazidə qanunsuz sanitar normalara uyğun olmayan şirəli-qazlı su satışı məntəqələri aşkarlanmış və fəaliyyətlərinə qadağa qoyulmuş, malyariya əleyhinə profilaktik tədbirlər aparmaq üçün tədbirlər görülmüşdür.

Hesabat dövründə Baytarlıq İdarəsi, Dezinfeksiya Stansiyası və Taun Əleyhinə şöbə öz işlərini qanunvericiliyə və təsdiq olunmuş profilaktiki tədbirlərə uyğun qurmuşlar.

Cari ilin 9 ayında Bərdə Regional Mədəniyyət və Turizm İdarəsinin Mingəçevir şəhər nümayəndəliyi tərəfindən mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni avadanlıqlarla təchizatı, binaların təmiri sahəsində müəyyən işlər görülmüşdür.

Gənclər arasında idmanın geniş yayılması, yarışların keçirilməsi sahəsində bir sıra işlər görülmüş, nailiyyətlər əldə olunmuşdur. Hesabat dövründə Gənclər və İdman İdarəsinin nəzdindəki idman məktəblərinin yetirmələri bir sıra uğurlar qazanmışlar. Ümumilikdə müxtəlif idman növləri üzrə ötən müddətdə 15 qızıl, 10 gümüş, 12 bürünc medal qazanılmışdır.

2017-ci ilin 9 ayında Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı yanında Şuranın 19 iclası keçirilmiş, 28 məsələyə baxılmışdır. Şəhər icra hakimiyyəti başçısı tərəfindən keçirilmiş 30 rəsmi qəbulda 323 vətəndaş qəbul olunmuşdur. Müxtəlif yaşayış sahələrində keçirilən 31 səyyari görüşdə 3012 nəfər iştirak etmiş, 257 müraciət dinlənilmişdir. Müraciətlər əsasən mənzil-məişət problemlərinin həlli ilə bağlı olmuşdur.

Təhlil göstərir ki, şəhərdə son illər aparılmış geniş quruculuq və bərpa işləri ilə yanaşı, əhalini narahat edən bir sıra problemlər qalmaqdadır. Qəbul və görüşlərdə olan müraciətlər əsasən dam örtüklərinin təmiri, məhəllədaxili abadlıq işləri, istilik sisteminin bərpası, işlə təmin olunma və sair məsələləri əhatə edir.

Qeyd olunan və əhalini narahat edən digər problemlər şəhər icra hakimiyyətinin nəzarətindədir və onların həlli istiqamətində tədbirlər görülür.

Bu ilin 9 ayının yekunu göstərir ki, şəhərdə aparılan abadlıq, quruculuq işləri uğurla davam edir. Əhalini narahat edən kommunal və digər problemlər ardıcıllıqla həll olunur və aradan qaldırılır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**